# Azərbaycanın möhtəşəm zəfərini tarixə həkk etmiş hərbi parad




***Bir il əvvəl dekabrın 10-da dünyanın nəzərləri yenidən Azərbaycan paytaxtına dikilmişdi. Həmin gün Bakının Azadlıq meydanında Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradının keçirilməsi işğalçı Ermənistanın məğlubiyyətini bir daha rəsmiləşdirən hərbi-siyasi aksiya olmaqla yanaşı, həm də çağdaş nəsillərə 30 ildən bəri həsrətində olduqları layiqli sevinc və öyünc hisslərini yaşatdı.***

Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qəbul etdikləri parada 3 min nəfərdən artıq şəxsi heyət, o cümlədən Türkiyə hərbçiləri, 150-dək hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər cəlb olunmuşdu, Azərbaycan Ordusunun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirilmişdi.

Prezident İlham Əliyev paradda çıxış edərək demişdir: “Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq”.

Azərbaycanın ən yeni tarixinin ilk Qələbə paradını həmin təntənənin iştirakçıları və şahidləri necə xarırlayırlar?

**Əhliman Əmiraslanov, Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik:**



– Bir il əvvəl 44 günlük Vətən müharibəsi Azərbaycan tarixinə 8 Noyabr Zəfər Gününü yazdı. Dekabrın 10-da isə tarixi qələbəmizin hərbi-siyasi təntənəsi olan Zəfər pardı keçirildi. Bu möhtəşəm alksiya Silahlı Qüvələrimizin yenilməz gücünü göstərməklə yanaşı, düşmənin məğlubiyyətinin qaçılmazlığını da dünyaya nümayiş etdirdi. Bu baxımdan ötən bir il tarixi zəfərimizin sevincini paylaşmaq üçün keçirilən tədbirlərin əhəmiyyətini daha aydın göstərir. Ölkəmizdə ordu quruculuğu istiqamətində əldə etdiyi uğurların fonunda ilk dəfə keçirilən Qələbə paradı xalqımızı ötən illərdəki ağrı-acılarına daha bir məlhəm oldu.

Onu da deyim ki, Prezident İlham Əliyev silahlı qüvvələrin 100 illiyində keçirilən paradda çıxışında söyləmişdi ki, düşməni məğlub edəcəyik və Azadlıq meydanında Qələbə paradı keçirəcəyik, zəfər bayrağını bura gətirəcəyik. İki il sonra cənab prezident bunları reallaşdırdı. Gördük ki, bizim güclü, qüdrətli, qətiyyətli, müdrik liderimiz var.

Qələbəmizdə birliyimiz də mühüm rol oynadı. Cənab prezidentin göstərdiyi dəmir yumruq kimi birləşdik. Qarabağ məsələsində, müharibə müddətində xalqımız dövlət başçısının ətrafında sıx birləşdi. İstər evləri dağılan sakinlər, istərsə də erməni terroruna məruz qalan vətəndaşlar da böyük iradə, birlik, həmrəylik nümayiş etdirdilər. Kimliyindən asılı olmayaraq, hər kəsin bir amalı vardı: qələbə qazanacağıq! 44 günlük qalibiyyətli Vətən müharibəsində düşmənə ağır zərbələr vuraraq torpaqlarımızı işğaldan azad edən ordumuz bu şanlı zəfərini 10 dekabrda Azadlıq meydanından dünyaya nümayiş etdirdi.

Zəfər paradında müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər təntənə ilə sərgiləndi. Parada, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi nümayiş olundu. Bu parad digər hərbi paradlardan tamamilə fərqləndi. Adından da göründüyü kimi, bu parad özündə Qələbə əhval-ruhiyyəmizi, sevincimizi ehtiva edirdi.

Parad öz möhtəşəmliyi, əzəməti, mahiyyəti ilə seçildi. Paradda döyüşdə iştirak edən hərbi hissələrin nümayəndələri baş meydandan iftixarla, təntənə ilə ötüb keçdilər. Paradı izləyən hər kəs qürur və sevinc göz yaşı axıdırdı. Birinci Qarabağ savaşında və Vətən müharibəsində canlarından keçən şəhidlərin ruhları həmin gün bizimlə birlikdə sevindi.

**Cavanşir Feyziyev, Milli Məclisin deputatı:**



– Azərbaycan paytaxtının baş meydanında keçirilən Zəfər paradı Qarabağda aparılan qalibiyyətli Vətən müharibəsi ilə tariximizə yazılan Zəfər salnaməsinin son cümləsininə qoyulan nida işarəsinə bənzədi. Necə ki, Prezident İlham Əliyev düşmən ölkənin rəhbərinin düz gözünün içinə demişdi: “Qarabağ Azərbaycandır– nida işarəsi(!). Yaşadığımız zəfər təntənəsi, təəssüf ki, müharibələrlə bağlı göynəkli düşüncələr də yaşadır.

Tarixdə çox müharibələr olub. Haqlı-haqsız, ədalətli və ya ədalətsiz. Bütün müharibələrin hər iki tərəf üçün ümumi olan və tarix boyu dəyişməyən cəhətləri var – itkilər, məhrumiyyətlər və onlardan doğan nifrət. İnsan itkisi, torpaq itkisi, sərvət itkisi və s. düşmənə nifrəti gücləndirir və bir müharibə başa çatmamış insanları yeni müharibəyə körükləyirdi. Qazananlar qənimətlərini əllərində saxlamaq, məğlublar isə itirdiklərini bərpa etmək üçün yenidən savaşmalı olurdular. Bugünkü müharibələrin məqsədi, qaydaları və nəticələri çox fərqlidir. Amma ibtidai dünyanın müharibələrini müşaiyət edən və hər iki tərəfin nəsibi olan ölüm, məhrumiyyət və itkilər müasir müharibələrin də ayrılmaz atributları olaraq qalmaqdadır.

Lakin yeganə bir fərq var– tərəflərdən yalnız birinə nəsib olan Zəfər xoşbəxtliyi. Ermənistanın Azərbaycana hərbi təcavüzündən 30 il sonra bu sevincin və xoşbəxtliyin sahibi Azərbaycan xalqı oldu. Bir il əvvəl ölkənin baş meydanında keçirilən Zəfər paradı qalib ordumuzun düşmən üzərində tam və birdəfəlik Qələbəsinin möhtəşəm təntənəsi oldu. Bu Zəfər paradı ümumxalq həmrəyliyimizin təcəssümü və düşmənə qarşı yumruq kimi birləşmiş bir xalqın müqəddəs Vətən sevgisinin təzahürü idi.

İtkilərimiz olsa belə, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında yenilməz ordumuzun qazandığı möhtəşəm Zəfər xalqı nifrətə yox, qurub-yaratmağa, xoşbəxt həyata səslədi. Zəfər paradında hərbçilərimizin torpağı möhürləyən sərrast addımları yalnız zəfərlərlə davam edəcək yeni həyatın başlanğıc addımları kimi mənalandı. Bu addımlar xalqımıza yeni və daha parlaq zəfərlər yoluna çıxartdı.

**Məlahət İbrahimqızı, Milli Məclsin deputatı:**



– Keçən il dekabrın 10-da Azadlıq meydanında Vətən müharibəsində Ermənistanı məğlub etmiş Azərbaycan Ordusunun möhtəşəm qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Qürurverici haldır ki, tribunada Prezident, Ali Baş Komandan İlham Əliyevlə yanaşı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da dayanmışdı. Bu, iki ölkə arasında dostluq və qardaşlığın sarsılmaz , “Bir millət, iki dövlət” olduğunu təsdiqləyən daha bir təntənə idi.

44 günlük Vətən müharibəsindən sonra dünya azərbaycanlılarına qələbə sevinci yaşadan bu hadisə bir də ona görə beynəlxalq ictimaiyyətin diqqət mərkəzində oldu ki, Azərbaycan XXI əsrdə Qələbə paradı keçirən yeganə ölkədir. Bu parad bir daha təsdiqlədi ki, Azərbaycan Ordusu dünyanın ən güclülərindən biridir.

Dövlətimizin başçısı da çıxışının əvvəlində bu günün tarixi bir gün oduğunu dedi. Bəli, düşməni 44 gün ərzində darmadağın edən bir ordunun, onun Ali Baş Komandanının Zəfər paradı keçirməsi hər bir soydaşımızda qürur hissi yaratdı. Dövlətimizin başçısı onun dəvətini qəbul edən Türkiyə Cümhuriyyətinin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın bu paradda iştirakından şad oluğunu bildirdi. Eyni zamanda, Türkiyədən gəlmiş böyük nümayəndə heyəti, türk əsgər və zabitləri də Zəfər paradına qatılmışdılar. Bu, bir daha Azərbaycan–Türkiyə birliyi, dostluğu və qardaşlığının göstəricisi idi.

Vətən müharibəsinin ilk günlərindən qardaş Türkiyənin dəstəyini hiss edirdik. Bu, Azərbaycanın haqq işinə verilən, hər bir soydaşımızı sevindirən dəstək idi. Qardaş ölkənin Prezidenti dəfələrlə bəyan etmişdi ki, bu müharibədə Azərbaycan haqlıdır, ərazi bütövlüyünü təmin edir. Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür.

Paradda diqqət çəkən məqamlardan biri də müzəffər ordumuzun Vətən müharibəsində məhv etdiyi düşmənə məxsus avtomobil və texnikaların nömrə nişanlarından ibarət nəhəng lövhənin nümayişi oldu. Lövhə böyük hərflərlə “Qarabağ Azərbaycandır!” şüarı əks olunmuş Azərbaycan Silahlı Qüvvələrinə məxsus hərbi texnikanın üzərində yerləşdirilmişdi.

Zəfər paradı Azərbaycan Ordusunun əzmini, şücaətini, qəhrəmanlığını və dünyanın ən güclülərindən biri olduğunu dünya ictimaiyyətinə nümayiş etdirdi.

**Ramiz Quliyev, Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti, Dövlət mükafatı laureatı:**



– Keçən ilin bu günü keçirilən və erməni faşizminin uzun illər işğal altında saxladığı əzəli-əbədi torpaqlarımızın azad olunmasının təntənəsinə çevrilən möhtəşəm Zəfər paradı ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı möhtəşəm qələbənin təntənəsi, xalqımızın ərazi bütövlüyü uğrunda apardığı mübarizənin parlaq nümayişi idi. Bu, elə bir xoşbəxt, bəxtəvər gün idi ki, Azərbaycanın hər bir vətəndaşı o günü otuz il gözləmişdi.

Zəfər paradı, həm də düşmən tapdağında inləmiş, xarabalığa çevrilmiş cənnət Qarabağın mənfur yağıdan xilas edilməsinin, belə demək mümkündürsə, təsdiqi idi. Onu da bildirim ki, xalqımız öz tarixinin ən möhtəşəm qələbəsini təkcə qəsdimizə durmuş ermənilər üzərində deyil, həm də düşməni bu haqsızlığa təhrik etmiş, onun ədalətsizliklərinə və vəhşiliklərinə uzun müddət göz yummuş güclü havadarları ilə dirənişdə qazandı.

Azərbaycan Prezidenti İlham Əliyevin 17 illik mübarizəsi, daxili və xarici siyasətdə yaratdığı yetərli təminatlar nəticəsində əldə olunan bu xoşbəxtlik ötən bir ilin hər günündə xalqımıza yeni töhfələr bəxş edir, hər birimizə davamlı xoş əhval gətirir. Qarabağa Böyük Qayıdış yolunda atılan hər uğurlu addım yüz minlərlə soydaşımızın doğma ocağına dönəcəyi günü durmadan yaxınlaşdırır. Bu qənaət və inam məndə Şuşada keçirilən “Xarıbülbül” festivalında, həmçinin Ağdam şəhərinin baş planının rayonda təşkil edilən təqdimatında iştirak edərkən yaranıb.

Qarabağın baş qapısı sayılan Ağdam mənim işıqlı aləmə göz açıb böyük dünyaya pərvazlandığım bir şəhərdir. Onun da acı aqibətinə daim hədsiz yanıb-yaxılmışam. Amma biz həmişə ulu öndər Heydər Əliyevin “Qarabağsız Azərbaycan, Şuşasız Qarabağ yoxdur!” hökmünə, Prezident İlham Əliyevin “Biz Ağdama da, Şuşaya da, Laçına da... işğal altında olan bütün torpaqlarımıza qayıdacağıq!” vədinə inanaraq toxtaqlıq tapmış, dözüm qazanmışıq. Cənnət Qarabağa dönəcəyimizə ötən illərdə zərrə qədər də şübhəmiz olmamışdı.

Qarabağ tarix boyu olduğu kimi, yenə də bizimdir və dövlətimizin başçısı cənab İlham Əliyevin təntənə ilə bəyan etdiyi kimi, əbədi bizim olacaq. Qarbağda qələbəmizin səhərisi günündən başlamış bərpa prosesinin ilk irimiqyaslı layihəsinə, ayrıca bir şəhərin – Ağdamın bərpasının baş planının icrasına start verilib. Dövlətimizin başçısının iştirakı ilə rayonun özündə, erməni vandallarının tarmar etdiyi şəhərdə bu möhtəşəm layihənin layiqli təqdimatı keçirilib. Qarabağı, Ağdamı düşməndən xilas etmiş cənab İlham Əliyev yerli ictimaiyyətin və tanınmış ziyalıların iştirakı ilə təqdim edilən baş planda nəzərdə tutulan əsas layihələrin təməlini qoyub.

Qarabağ və Şərqi Zəngəzurda tikinti-quruculuq layihələri sürətlə icra edilir. Erməni vandallarının viran qoyduğu tarixi, mədəni, dini irsimiz yüksək səviyyədə bərpa olunur, düşməndən təmizlənən torpaqlarda həyat yenidən qayıdır. Bütün bunlar isə bütün dünyaya Qarabağın həqiqi sahiblərinin bu yerə də həmişəlik qayıtdıqlarını göstərir. Qələbə paradının ildönümü günündə bütün bunları görüb-yaşamaq əsl xoşbəxtlikdir.

***Hazırladı:***
***Tahir AYDINOĞLU,***
***“Xalq qəzeti”***